PARADIGMA, Xüsusi buraxılış, 2025, səh.58-64
https://doi.org/10.30546/30015.2025.4.032

# 1920-1937-Cİ İLLƏRDƏ APARILAN MİLLİ-AZADLIQ MÜBARİZƏSİ

**N.Y. Quliyeva, N.B. Hüseyinova**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli, 71, Bakı, Azərbaycan
e-mail: novrasta.guliyeva@au.edu.az

**Xülasə.** 1920–1937-ci illərdə Azərbaycanda milli-azadlıq mübarizəsi sovet imperiyasının siyasi, ideoloji və mədəni təzyiqlərinə qarşı yönəlmişdi. Bu dövrdə ziyalılar və gizli təşkilatlar milli dövlətçilik ideyalarını qorumaq, milli kimliyi, dili və dini dəyərləri yaşatmaq uğrunda ardıcıl mübarizə aparmışdılar. Bu dövr siyasi repressiyalar, ideoloji təzyiqlər və milli müqavimət hərəkatları ilə səciyyələnirdi.

**Açar sözlər:** Milli azadlıq hərəkatı, antisovet üsyanlar, müsavatçılar və milli ziyalıların təqibi, repressiyalar dövrünün başlanması və "böyük təmizləmə" dalğası, kollektivləşməyə qarşı mübarizə.

## Giriş

1920-ci il 27 aprel işğalından sonra Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları, ictimai siyasi xadimlər, görkəmli ziyalılar Sovet imperiyasına qarşı milli-azadlıq mübarizəsinə başladılar. Bu dövr təkcə fiziki mübarizə deyil, həm də mənəvi-ideoloji dirəniş dövrü idi. Azərbaycan xalqı milli varlığını qorumaq, öz tarixi köklərini və mədəni dəyərlərini yaşatmaq uğrunda çətin, lakin fədakarcasına mübarizə aparırdı. Bu dövrün hadisələri sonrakı illərdə milli özünüdərkin güclənməsinə və azadlıq ideyalarının yenidən dirçəlməsinə zəmin yaratdı.

Azərbaycanın keçmiş dövlət xadimləri, müəllimlər, tələbələr və milli düşüncəyə sahib gənclər milli kimliyi, dili və mədəniyyəti Sovet hakimiyyətindən qorumaq məqsədilə müxtəlif formalarda mübarizəyə başladılar. Bu mübarizə formalarından biri gizli təşkilatların yaranması və fəaliyyəti oldu.

## Tədqiqat

27 aprel işğalından sonra Azərbayxan xalqı bolşevik hakimiyyəti ilə razılaşmadı və Bolşevik rejiminə qarşı mübarizəyə başlanıldı. Bolşevik rejiminə qarşı aparılan mübarizə 4 mərhələ təşkil edir. 1920-1923-cü illəri əhatə edən birinci mərhələdə Azərbaycandakı müsavatçılar və ittihadçıların bölgədəki və Gürcüstandakı menşeviklər, Dağıstandakı antisovet qiyamçılarla əlaqəyə girməsi və kütləvi üsyanların təşkil edilməsi ilə müşayiət olunur. İkinci mərhələ 1923-1926-cı illəri əhatə edir. Bu mərhələdə respublikadakı partiyalar "Müsavat" partiyası da daxil olmaqla siyasi taktikasını dəyişərək daha çox müşahidəçiliyə üstünlük verir. 1926-1931-ci illəri əhatə edən üçüncü mərhələdə antisovet üsyanları genişlənir, dördüncü mərhələdə isə (1931-1937) mütəşəkkil olmasa da bu mərhələdə ziyalı təbəqəsi formalaşır, bununla da represssiya daha da genişlənir [1, s.197].

Azərbaycanın Sovetləşməsinə qarşı baş verən antisovet üsyanlar get-gedə genişlənirdi. 1920-ci ilin may ayının 28-də başlanmış Gəncə üsyanı ümumxalq müqavimət hərəkatına çevrildi. Bir həftə davam edən küçə döyüşlərindən sonra Gəncə üsyan amansızlıqla yatırıldı, may ayının 12-də həbs edilib Bakıya gətirilən Gəncə qubernatoru Xudadat bəy Rəfibəyli və üsyan başlanandan bir gün sonra həbs olunmuş Milli Ordunun 76 nəfər yüksək rütbəli zabiti dərhal Nargin adasında güllələndilər [2, s.29].

Türk generalı Nuru paşanın rəhbərliyi ilə 1920-ci ilin iyun ayının əvvəllərində baş vermiş Qarabağ üsyanında əsas qüvvəni Azərbaycanın müxtəlif bölgələrində yerləşən Milli Ordunun hissələri, o cümlədən Şəki, Cavanşir, Ağdam süvari alayları, Bakı piyada alayı və iki topçu diviziyası təşkil edirdi. İlk silahlı qarşıdurma Ehsan xan Naxçıvanskinin komandanlığı altında olan Şəki alayı ilə baş vermişdi. Döyüş zamanı Naxçıvanski və onu müşayiət edən bir qrup zabit XI Qırmızı Ordu tərəfindən əsir götürülərək qərargahda güllələnmişdi. Nəticədə, Qarabağ üsyanı sovet qüvvələri tərəfindən qəddarlıqla yatırılmışd [4, s.261].

İyunun 10-da rus hərbi təyyarələri Tərtər istiqamətində Azərbaycan Ordusunun mövqelərinə hücum edərək onları intensiv atəşə tutdu. Azərbaycan əsgərləri igidlik və böyük fədakarlıqla müqavimət göstərsələr də, qüvvələrin qeyri-bərabərliyi səbəbindən geri çəkilməyə məcbur oldular. Nəticədə Qırmızı Ordu Tərtəri ələ keçirdi, yerli əhaliyə qarşı kütləvi zorakılıqlar törədildi, bir neçə kənd tamamilə dağıdıldı. Ardınca Bərdədə və Ağdamda xalq üzərində zorakılıqlar davam etdirən istilaçı qüvvələr, iyunun 15-də Şuşanı da işğal etdilər. Bu döyüşlərdən sonra Azərbaycan Ordusunun qalan hissələri və Nuru paşa qüvvələri Qaryagin və Cəbrayıl istiqamətinə çəkilərək ölkə ərazisini tərk etdilər. Eyni dövrdə-iyunun əvvəllərində isə Zaqatala, Nuxa, Göyçay, Quba və digər bölgələrdə də xalq üsyanları alovlanmışdı [3, s.272].

1920-ci ilin yayında Şəmkir qəzasının Müşküllü kəndi ətrafında kəndlilərdən ibarət silahlı müqavimət dəstələri təşkil olunmuşdu. Qırmızı Ordu hissələri ilə gedən döyüşlərdə yerli sakinlər -kişilər, qadınlar və hətta uşaqlar belə böyük qəhrəmanlıq və fədakarlıq nümayiş etdirmişdilər. Döyüşlər nəticəsində 29 kişi və 49 qadın şəhid olmuşdu. Düşmən qüvvələri say üstünlüyündən istifadə edərək üsyançı dəstələri dağıda bilmişdi. Payız aylarında Şəmkir kəndliləri yenidən üsyana qalxmış, bu dəfə Namaz adlı kəndli liderlik etmişdi. Onun rəhbərlik etdiyi təxminən 500 nəfərlik silahlı dəstə düşmən ordusunun bir hissəsini məhv etmiş, qəzanın geniş bir hissəsini öz nəzarətinə götürə bilmişdi. Lakin Qırmızı Ordu üsyanı yatırmaq üçün 4 diviziya göndərdi, nəticədə üsyan qəddarlıqla boğuldu. Düşmən qüvvələri bir neçə kəndin əhalisini qətlə yetirdi, evləri yandıraraq yerlə yeksan etdi. Cavanşir qəzasında Sultan bəyin rəhbərliyi ilə silahlı kəndlilər mübarizə aparırdı. Qubada və Lənkəranda da üsyanlar baş

vermişdi. 1920-ci ildə qaçaqlar Kürdən Astarayadək Xəzərsahili bölgələrə nəzarət edirdilər. Kamal Paşanın dəstəsi rus ordusuna ağır zərbə vurdu, lakin uzunmüddətli döyüşlərdən sonra üsyan yatırıldı. 1921-ci ilin yanvarında üsyançılar İrana çəkildi, Kamal Paşa isə döyüşdə həlak oldu [3, s.273].

Xalq üsyanları yeni hökuməti qorxuya salmış, Moskva Azərbaycanın itirilməsindən ehtiyat etmişdi. Abşeronu və Bakı neftini qorumaq üçün 1920-ci ilin iyununda müdafiə xətti qurulmuş, noyabrda isə əlavə qoşun hissələri gətirilmişdi. Hakimiyyət yalnız hərbi güc və qorxu ilə möhkəmlənmiş, 1920-1921-ci illərdə 48 min insan, əsasən ziyalılar qırmızı terrorun qurbanı olmuşdu. Yadellilərə və yeni rejimə qarşı mübarizə ideoloji pərdə altında aparılırdı. Ağdam, Nuxa və Göyçayda Hüseyn Əfəndinin rəhbərliyilə "Azərbaycan Milli-Müdafıeyi İslam Firqəsi" sovet hakimiyyətinə qarşı fəaliyyət göstərmiş, lakin 1921-ci ilin ortalarında məhv edilmişdi. Lənkəranda Şahverdinin, Naxçıvanda və Zəngəzurda isə X. Sultanovun rəhbərliyi ilə üsyanlar baş vermişdi [3, s.274].

Ümumiyyətlə, 1920-1924-cü illərdə rus işğalçı ordusuna və bolşevik rejiminə qarşı 54 silahlı üsyan baş vermişdi. Qüvvələrin qeyri-bərabərliyi səbəbindən xalqın cəsarətli mübarizəsi nəticə verməmiş, üsyanlar yatırıldıqdan sonra vətənpərvərlər güllələnmiş, ailələri həbs olunmuş, şəhər və kəndlər talan edilmişdi [3, s.274].

1920-1930-cu illərdə Azərbaycanda Sovet rejiminə qarşı çoxsaylı gizli təşkilatlar və qurumlar fəaliyyət göstərirdi. "Gizli Müsavat"la yanaşı, "Gənc Azər" təşkilatı gənclər arasında millətçi ideyaları yayır, müsavatçı kadrlar hazırlayır və Azərbaycanın Rusiyadan ayrılması uğrunda çalışırdı. Həmçinin "Gənc Türkçülər Birliyi", "Müstəqil Azərbaycan" və "Azərbaycanı öyrənən cəmiyyət" kimi qurumlar da fəal idi. Bu təşkilatların əksəriyyəti müsavatçılar tərəfindən yaradılmış, "Azərbaycanı öyrənən cəmiyyət" isə yeni əlifbanın tətbiqinə qarşı ciddi mübarizə aparmışdı [6, s.27].

"Müsavat" təşkilatı 1920-1937-ci illərdə gizli şəkildə rus işğalına etiraz edən və xalqı mübarizəyə səsləyən bəyannamələr çap etdirərək xalq içərisində yayırdı. 1923-cü ildə istilanın üçüncü ildönümü münasibətilə partiyanın nəşr etdirdiyi bəyannamədə deyilirdi: "Bu gün hər kəsə aydındır ki, 27 aprel faciəsi kommunistlərin hər yerdə çığırdıqları kimi Azərbaycan kəndli və fəhləsinin inqilabı deyil, sadəcə rus ordusunun vəhşicəsinə istilasıdır. Azərbaycan türk xalqının məsum axan qanından fışqıran milli intibah rus ordusunun son qəbir daşı olacaqdır. Ey türk xalqı, səni azad edəcək qanlı mübarizəyə bütün qüvvənlə hazırlaş, səni bu mübarizə xilas edəcəkdir [5, s.88-89].

1926-1931-ci illər Gizli Müsavat Partiyasının fəaliyyətinin üçüncü mərhələsi sayılır və partiyanın ən aktiv dövrlərindən biri olmuşdur. Bu dövrdə partiya xüsusilə gənclər arasında təbliğat və təşviqat işlərini genişləndirmiş, ictimaiyyətə bəyannamələr yayaraq ruslaşdırma siyasətinə qarşı çıxmışdır. Azərbaycan Dövlət Siyasi İdarəsinin məlumatlarına görə, 1925-1931-ci illər ərzində Müsavatın fəaliyyəti nəticəsində 12 müxtəlif təşkilat, qrup və dərnək fəaliyyət göstərmişdir. Bunlar arasında Gənc Azər, Gənc Türkçülər Birliyi və Türkçülər qrupu kimi birləşmələr xüsusi əhəmiyyət daşıyırdı. Gənc Azər təşkilatı təbliğat üçün mühacirətdə çap edilən "Yeni Kafkasya" və "Gənc Azər" jurnallarından istifadə edirdi. 1931-ci ildə üçüncü Gizli Müsavat təşkilatı aşkar edilərək dağıdılmış, lakin eyni ildə yenidən qurulmuşdur. Partiyanın dördüncü mərhələsi 1931-1937-ci illəri əhatə etmiş və Stalin repressiyaları ilə sona çatmışdır. Sovet hakimiyyətinin sərt təzyiqi və terroru milli mübarizəni zəiflətsə də, Azərbaycan milli müstəqillik hərəkatı mühacirətdə fəaliyyət göstərən Azərbaycan Milli Mərkəzi və Müsavat Xarici Bürosu vasitəsilə davam etdirilmişdir [7, 30.10.25].

Bu dövrdə İttihad gizli fəaliyyətə keçərək antisovet partiya kimi fəaliyyət göstərdi. "Vətən ya ölüm", "Mərkəzi İttihad" və "Quranın əmin-amanlığı" adlı üç qrup Azərbaycanda gizli təşkilatlar yaratdı, Dağıstan və İranla əlaqələr qurdu. 1920-ci ilin sonunda İttihad silahlı üsyanla hakimiyyəti ələ keçirməyi planlaşdırırdı.

XX əsrin 20-30-cu illəri Azərbaycan tarixinin ən acılı səhifələrindən biri kütləvi repressiyaların həyata keçirilməsi oldu. Repressiyaların ilk qurbanları içərisində H.Cavid, M.Müşviq, T.Şahbazi, Ə.Razi, S.Mumtaz, Y.V.Çəmənzəmənli, Ə.Cavad kimi istedadlı, savadlı ziyalılar da var idi. Repressiya qurbanları arasında Azərbaycan cəmiyyətinin elmi potensialına və mənəvi zənginləşməsinə öz böyük töhfələrini vermiş görkəmli alimlər B. Çobanzadə, Ə. Qubaydullin, B. Tixomirov, A. Bukşpan, Azərbaycan səhnəsinin aparıcı aktyorları Ülvi Rəcəb Şaşikaşvili və Abbas Mirzə Şərifzadə var idi. Cəzalandırılanlar hamısı müxtəlif ölkələrin xeyrinə casusluqda, pantürkizmdə, panislamizmdə, xalq işinə xəyanətdə ittiham olunmuşdular [8, 30.10.25].

Ümumilikdə 1920–1950-ci illər arasında Azərbaycanda baş verən repressiya dövrü xalq tarixinin ən ağır və faciəli səhifələrindən birini təşkil etmişdir. 1920-ci illərdə Sovet hakimiyyəti ölkədə milli azadlıq hərəkatını zəiflətmək məqsədilə terror və siyasi təzyiqlərdən istifadə etmiş, lakin bu tədbirlər əsasən hərəkətlərin ilkin mərhələsində effekt göstərmişdir. 1930-cu illərdə repressiyalar daha geniş miqyas alaraq bütün cəmiyyət təbəqələrini əhatə etmiş, həm siyasi, həm də sosial həyat üzərində qorxu yaratmışdır. 1936–1938-ci illərdə "1937 repressiyası" kimi tanınan mərhələ xüsusilə qanlı olmuş, sistemli təqiblər və həbs dalğaları həyata keçirilmişdir.

Bu dönəmdən 1950-ci illərin əvvəlinə qədər Azərbaycanda təxminən 80 000 nəfər, o cümlədən 29 000 ziyalı, siyasi motivlərlə həbs edilmiş, sürgün olunmuş və ya həyatını itirmişdir. Bu repressiyalar cəmiyyətin intellektual və milli potensialına ciddi zərbə vurmuş, xalqın milli və mədəni inkişafını uzun müddətə məhdudlaşdırmışdır [7, 30.10.25].

1929-cu ilin sonlarından etibarən Azərbaycanda genişmiqyaslı kəndli üsyanları başladı. Sovet hakimiyyətini ciddi narahat edən bu hadisələr Almaniya, Fransa, İsveçrə və İngiltərə mətbuatında da əks olunmuşdu. Üsyan demək olar ki, bütün ölkəni-Zaqatala, Şəki, Qazax, Gəncə, Naxçıvan, Qarabağ, Muğan, Salyan, Lənkəran, Göyçay, Ağdaş, Şirvan və Quba bölgələrini bürümüşdü. Moskva üsyanları yatırmaq üçün Azərbaycana əlavə rus qoşunları və 2000-dən çox "çekist" göndərdi. Bir çox yerlərdə kəndlilər Moskva nümayəndələrinə qarşı çıxaraq onları cəzalandırırdılar. Salyanda keçirilən səyyar məhkəmələrdə məlum oldu ki, Muğan və Mil bölgələrində kəndlilər ruslaşdırma siyasətinə etiraz olaraq qiyam qaldırmış, Kür çayının bəndlərini açaraq rus məskənlərini və əkin sahələrini məhv etmişdilər [6, s.22].

Sovet hökumətinin həyata keçirdiyi tədbirlərdən  biri kollektivləşdirmə oldu. Bu proses kəndlilər arasında ciddi narazılıq yaratdı və məcburi tətbiqi üsyanlara, müqavimətə və kənd təsərrüfatının zərərinə səbəb oldu. Kollektivləşmə Sovet dövrünün kənd iqtisadiyyatını və sosial münasibətlərini köklü şəkildə dəyişdirdi. Sovet hökumətinin kəndliyə qarşı apardığı bu siyasət kənd müqavimətini gücləndirdi. Varlı və ortabab kəndlilər xüsusi dəstələr təşkil edərək bolşeviklərdən qisas alır, zəmiləri yandırır və taxılı gizlədir, hökumətin sərt siyasətinə qarşı çıxırdılar. Bu hərəkat əsasən milli-azadlıq motivləri ilə əlaqəli idi və kolxoz yaratmadan kənd təsərrüfatını məhv etmək mümkün deyildi.

1926-1929-cu illərdə Qazax rayonunda antisovet hərəkat baş verdi. «Həqiqət ordusu» adlı gizli təşkilat yaradılmış, onun «Əzrayıl fırqəsi» adlı terrorçu qrupu fəaliyyət göstərirdi. Hərəkatın bazası geniş olub, kənd əhalisi, din xadimləri, müəllimlər və bəzi sovet işçiləri iştirak edirdi. 1929-cu ilin baharında təşkilatın «Haqq idarəsi» Qazaxda intibahnamələr yayaraq bolşeviklərdən din və ticarət azadlığı tələb etmişdi. Məqsəd silahlı çıxışlar və terror aktları həyata keçirmək idi, lakin təşkilat tezliklə aşkar edilərək ləğv edildi [3, s.285].

1930-ci ilin fevralında Naxçıvanın Keçili kəndində Sovet hökumətinə qarşı üsyan başladı. Qonşu kəndlərin əhalisi də üsyana qoşuldu və 200 nəfərdən ibarət dəstə yarandı. Üsyançılar xaricdəki Kəlbalı xanın qüvvələri ilə birləşmək istəyirdilər. Sovet ordusu və milis qüvvələri üsyanı yatırmaqda çətinlik çəkdi; döyüşlərdə 100 nəfər şəhid oldu, 120 nəfər həbs edildi. Lakin 30-40 nəfər dağlara çəkilərək kiçik dəstə kimi hücumları davam etdirdi. 1932-ci ilin aprelində Sarı dağın ətəyində üsyançılar mühasirəyə alınaraq ələ keçirildi. 1930-cu ilin aprelin 13-dən

16-dək isə Nuxada baş verən kəndli üsyanı hökumətin cəza dəstələri tərəfindən amansızlıqla yatırıldı. Vətənpərvər qüvvələr xalqı təşkil edib mübarizəyə qaldırmaq üçün müxtəlif üsullardan istifadə etsələr də, martda Şamxor rayonunun Bitdili kəndində yayılan «şəfa verən imam» şayiəsi əhalini cəlb etdi. Hökumət cəza tədbirlərini genişləndirərək qadın, uşaq və yaşlılara belə divan tutdu [3, s.285].

**Nəticə**

1920–1930-cu illər Azərbaycan xalqının həm silahlı, həm ideoloji, həm də təşkilati mübarizəsini əhatə edən, milli dirəniş və azadlıq uğrunda fədakarlıq dövrü olmuşdur. Hər nə qədər Sovet repressiyaları və güc tətbiqi nəticəsində bu hərəkat tam zəifləsə də, xalqın milli şüuru və azadlıq arzusu gələcəkdə mühacirət hərəkatı və daha sonrakı tarixi proseslər üçün möhkəm zəmin yaratmışdır. Xalqın milli-azadlqı mübarizəsi göstərir ki, Azərbaycan xalqı yalnız müstəqillik uğrunda mübarizə aparmamış, eyni zamanda öz milli kimliyini, mədəniyyətini və tarixi dəyərlərini qorumaq üçün hər cür təzyiqə qarşı durmağı bacarmışdır və bu hərəkat milli şüurunun qorunmasında və milli müstəqillik hərəkatının davam etdirilməsində əhəmiyyətli rol oynamışdır.

**Ədəbiyyat**

1. Əmrahov M.İ., (2009), Azərbaycan milli azadlıq hərəkatı, Ali məktəblər üçün dərslik, Bakı, APDU-nun nəşriyyatı, 371 s.
2. Həsənli C.P., (2009), Sovet Dövründə Azərbaycanın Xarici Siyasəti (1920-1939), Bakı, “ADİLOĞLU” Nəşriyyatı, 656 s.
3. XX əsr Azərbaycan tarixi, (2009), II cild, Ali məktəblər üçün dərslik, Bakı, Təhsil, 560 s.
4. Nuriyeva İ.T., (2015), Azərbaycan tarixi (ən qədim zamanlardan – XXI əsrin əvvəllərinədək), Ali məktəblər üçün dərslik, Bakı, Mütərcim, 336 s.
5. Oruclu M.R., (2009), Azərbaycanda və mühacirətdə Müsavat Partiyasının fəaliyyəti (1911-1992), Bakı, Azərnəşr, 272 s.
6. Yaqublu N.Q., (2002), Azərbaycan legionerləri, Bakı, Bakı Universiteti Nəşriyyatı, 341s.
7. Azərbaycan Milli Müstəqillik Hərəkatında siyasi mühaciərtinin rolu (1920-1950): [Elektron resurs] / – 14 oktyabr, 2025. URL: https://milliyyet.info/tarix/az%C9%99rbaycan-milli-must%C9%99qillik-h%C9%99r%C9%99katinda-siyasi-muhacir%C9%99tinin-rolu-1920-1050/
8. Repressiya tarixi: [Elektron resurs] / – 13 oktyabr, 2025. URL: https://tarixinstitutu.az/page/112/repression

**NATIONAL FREEDOM STRUGGLE IN 1920-1937**

**N.Y. Guliyeva, N.B. Huseyinova**
Azerbaijan University, Jeyhun Hajibeyli, 71, Baku, Azerbaijan

**Abstract.** In 1920–1937, the national liberation struggle in Azerbaijan was directed against the political, ideological and cultural pressures of the Soviet empire. During this period, intellectuals and secret organizations fought consistently to protect the ideas of national statehood, to preserve national identity, language and religious values. This period was characterized by political repressions, ideological pressures and national resistance movements.

**Keywords:** National liberation movement, anti-Soviet uprisings, persecution of Musavatists and national intellectuals, the beginning of the period of repressions and the wave of the “great purge”, the struggle against collectivization.